# Dünyanın ilk qadın yazarları

IV yazı

## Türk ədəbiyyatının ilk qadın romançısı

***Avropa ədəbiyyatından fərqli olaraq, türk dünyasında qadın nəsrinin tarixi XIX əsrin sonlarından o yana getmir. İlk türk qadın romançısı Fatma Aliyə Topuz hesab olunur və mənbələrin qeydinə inansaq, o yalnız Osmanlı imperiyasında deyil, bütün İslam dünyasında ilk qadın romançıdır.***

1862-ci il oktyabrın 9-da İstanbulda tarixçi Əhməd Cövdət Paşanın ailəsində dünyaya göz açan Fatma xanım da bacısı kimi, ev təhsili almış, ərəb və fransız dillərini öyrənmişdir. Yeri gəlmişkən, qeyd edək ki, bacısı Əminə Səmiyə də məşrutə dövrü yazarlarındandır və ev təhsilindən başqa, Fransada psixologiya, İsveçdə sosiologiya üzrə təhsil almışdır. Yəqin təkcə elə bu fakt kifayət edir ki, Fatma xanımın təhsilə, savada necə dəyər verən bir ailədə böyüməsi bəlli olsun. Bununla belə, o dövrdə adət-ənənə erkən nikah tələb edirdi və Fatma xanım 17 yaşında Osmanlı sultanının hərbi qulluqçusu Mehmet Faiq bəylə ailə qurmuş, dörd qız övladı dünyaya gətirmişdir.

Fatma Aliyə xanımın ədəbiyyatla bağlılığı 1889-cu ildə fransız yazıçısı Corc Onetin "Məram" romanını tərcümə etməklə başlamışdır. O dönəmdə qadın yazarlar qınanılacaqları qorxusu ilə bəzən öz adları ilə deyil, təxəllüslərlə yazmaq məcburiyyətində qalırdılar. Fatma xanım da əvvəlcə "Bir xanım", sonrakı tərcümələrində isə "Mütərcimei-Məram" imzasını işlətmişdir. İlk uğurlu tərcümə işi "Tərcümani-həqiqət" qəzetində təqdir olundu, xüsusilə, dövrünün nüfuzlu ədəbi simalarından olan, "yazı makinası" adlandırılan Əhməd Midhət əfəndi tərəfindən çox müsbət qarşılandı. Əhməd bəy bir çox yazarları olduğu kimi, Fatma xanımı da dəstəkləmiş, onun ədəbiyyat sahəsində qətiyyətli addımlar atmasına səbəb olmuşdur. Maraqlıdır ki, adətən, bədii ədəbiyyatla məşğul olan qadınlara kişilərin münasibəti birmənalı olmur. Hətta müasir dövrümüzdə belə, yazmağın qadın işi olmadığını, onun vəzifələrinin ailə və məişət qayğıları ilə məhdudlaşdığını deyənlər üstünlük təşkil edir. Əvvəlki əsrlərdə bu yanaşma daha geniş yayılmışdı. Lakin Fatma xanımın bu baxımdan bəxti gətirdiyini demək olar. Çünki bioqrafiyasından göründüyü kimi, ona ailəsində atası, böyük qardaşı dəstək olmuşlar. Ən böyük qayğını isə sonralar dostu və mənəvi atası olan Əhməd Midhət əfəndidən görmüşdür. Fatma xanım ilk romanı olan "Xəyal və həqiqət"i 1891-ci ildə onunla müştərək yazmışdır - burada da "Bir qadın" imzasını işlətmişdir. Yalnız bir il sonra yazdığı "Mühadərat" ("Faydalı məsləhətlər") adlı ikinci romanını ilk dəfə olaraq öz adı ilə imzalamışdır. Bu əsər böyük maraqla qarşılanmış, 1908-ci ildə ikinci dəfə nəşr olunmuşdur. Əhməd Midhət, eyni zamanda, Fatma xanımın tərcümeyi-halını yazmış və ona doğum günü hədiyyəsi olaraq, "Bir Osmanlı qadın yazarının doğuluşu" adı ilə çap etdirmişdir.




Bir məqam da diqqəti cəlb edir ki, Əhməd bəy ümumiyyətlə, qadın yazarlara göstərdiyi qayğını türk ədəbiyyatında ilk roman yazmış Zəfər xanımdan əsirgəmişdir. Məsələ burasındadır ki, Zəfər xanımın Krım müharibəsində həlak olanların ailəsinə maddi dəstək məqsədilə yazdığı "Aşkı-vatan" romanı 1877-ci ildə yazılsa da, onun yalnız bir, Fatma xanımın isə 5 romanı olduğundan ilk türk romançı qadın olaraq ikincinin adı təsdiqlənmişdir. Bu işdə Əhməd bəyin mövqeyi əhəmiyyətli rola malik olmuşdur. Belə ki, o, mətbuatda romanı kəskin tənqid etmişdir.

Zəfər xanımın kimliyi haqqında olduğu kimi, yaradıcılığı ilə bağlı da məlumat yox dərəcəsindədir. Romanının isə hətta tərcümə olduğunu söyləyənlər də var. Taleyin ironiyası isə bundadır ki, bir qadın yazarın yolunda yaşıl işıq yandıran Əhməd bəy digər bir xanımın haqqına girmiş olur və uzun illər Zəfər xanımın adı türk ədəbiyyatında, demək olar ki, tamamilə unudulur. Yalnız 1993-cü ildə digər bir qadın yazar - Zəhra Toska onun kitabını çap edərək, Zəfər xanımın əsərinin türk ədəbiyyatında qadın tərəfindən yazılmış ilk roman olduğunu sübut etməyə çalışır. Lakin artıq illərdir oturuşmuş fikri dəyişməyə nail ola bilmir.



Fatma Aliyə Topuzun yuxarıda adı çəkilənlərdən başqa, daha 3 romanı olmuş və bu əsərlərdə o, qadın haqları, cinsi bərabərlik mövzularını qabartmış, kişiyə ehtiyac duymadan həyatını təmin edən müstəqil qadın obrazları yaratmışdır. Eyni mövzulara o, həmçinin "Qadınlara məxsus qəzet", "İnqilab" və "Ümmət" kimi qadın dərgilərində yazdığı məqalələrində də böyük yer ayırır. Bununla belə, qadın haqlarından bəhs edərkən düşüncələrindəki mühafizəkarlıqdan da tam olaraq qopa bilmir.

1892-ci ildə çap etdirdiyi "Nisvani-i İslam" kitabı da bu baxımdan fərqli deyil. Burada Osmanlı qadınlarının hüququ, vəzifələri haqqında ilk dəfə olaraq qadın tərəfindən bəhs olunmuşdur. Fatma xanım qadına müstəqillik verilməsini arzuladığı kimi, həmçinin onun öz vəzifələrinə sahib çıxmalı olduğunu da vurğulayır. Kitabın başqa bir özəlliyi də onun qərbli qadınlara müraciətlə yazılmasındadır; belə ki, Fatma xanım bu fikirdə idi ki, Qərb islam qadınının durumunu olduğu kimi bilmir və onların yanlış təsəvvürlərini dağıtmaq üçün türk qadınının həyatında islamın rolu, örtünmə, ailə məsələləri ilə bağlı xeyli bilgilər verir. Bu kitab tezliklə rus və fransız dillərinə tərcümə olunmuş və Çikaqo kitab sərgisində diqqət çəkərək mükafat almışdır. Müəllifin yazdığına görə, mükafatın ardınca əsər dərhal ərəb və ingilis dillərinə də tərcümə edilmişdir.

Ayişə Durakbaşa "Türk modernizmi və feminizm" kitabında həmin dövrün bütün yazar xanımlarını "Osmanlı feministləri" adlandırır. XIX əsrin türk qadın yazarları sözün əsl mənasında feminist hesab olunmasa da, müəllif bu fikrini belə əsaslandırır ki, onlar mütəvazi şəkildə sadəcə qızların təhsil problemləri və sosial hüquqlarının qorunması məsələləri ilə maraqlanırdılar və bu, həmin dövr üçün feminizm kimi qəbul oluna bilər. Lakin bununla belə, istər bədii, istərsə də publisistik yaradıcılığında qadın haqlarını müdafiə edərkən dinə və milli adət-ənənələrə söykənən bir qadını feminist adlandırmağı, bir çox tədqiqatçılar kimi, "öncül feministlər" sırasında dəyərləndirməyi doğru hesab etmirik.

Fatma Aliyə xanım 1909-cu ildə "İnqilab" dərgisində yayımlanan "Elm və cəhl" adlı məqaləsində radikal feminizmə qarşı çıxaraq qeyd edir ki, onların tələbləri qadınları xoşbəxt edə bilməz və bu səbəbdən evliliyə rəğbət göstərməyən qadınların sayının artması onu ciddi şəkildə narahat edir. Hətta "Qadınların qələbə üçün əllərində çox böyük bir silahı vardır ki, o da şəriətdir" - deyə, xilası dinə sığınmaqda görür ki, bu da xeyli mübahisəli məsələdir. Fatma xanımın "Bu mücadiləni kişi və qadın arasında müxalifətə çevirməkdənsə elm və cəhalət mübarizəsi halına gətirmək daha münasib olmazmı?" fikrinə isə tamamilə haqq qazandırmaq olar. Oxşar fikirlərlə yazarın romanlarında da qarşılaşırıq.

Fatma xanım və Əhməd bəyin "Xəyal və həqiqət" romanında göstərilir ki, Fransada qadınların roman oxumasına qadağa qoyulmuşdur. Türkiyədə də müasirləri Tofiq Fikrət, Mehmet Cəlal və b. müəlliflər qadınların mütaliəsinə qarşı çıxmışlar. Hər iki müəllif məqalələrində qətiyyətlə bildirir ki, roman mətnində sevgi macəraları yaşandığı üçün bu hisslər qız və qadınların "ağlını dumanlandırır" və pis örnək olduğuna görə bədii mütaliə onlar üçün təhlükəlidir. Türkəmeyihalından göründüyü kimi, Fatma Aliyə Topuzun geniş mütaliəsi olmuşdur. Maraqlısı budur ki, ailə qurduqdan sonra on il boyunca həyat yoldaşından gizli mütaliə etmək məcburiyyətində qalmışdır. Onun qadın oxucu məsələsinə münasibətini "Mühadərat" romanından öyrənmək mümkündür. Bu əsərdə mütaliə vərdişi olan iki gənc qız obrazı var və oxumaq hərəsinə bir cür təsir edir. Fatma xanımın mövqeyi belədir ki, hər oxucunun mütaliədən nəyi əxz edəcəyi onun biliklərindən və dünyagörüşündən asılıdır - bu barədə müəlliflə razılaşmamaq olmur.

Virciniya Vulf "Özünə aid bir otaq" əsərində qadınlar arasından dahi yazarların çıxmaması səbəbini maddi imkansızlıq və sosial qayğılarla əlaqələndirir, qeyd edir ki, hər bir qadın yazarın özünə aid bir məkanı olmalıdır. Əlbəttə, V.Vulfun bu fikrinin birinci hissəsi bir qədər mübahisəlidir, çünki istedad və zəhmət birləşəndə nəticəsi istənilən şəraitdə meydana gələ bilər. Bununla belə, yaradıcı əməklə yanaşı, həm də ailə və məişət qayğıları ilə yaşamaq, sosial problemlər və s. həqiqətən, nəticələrə təsir edir. Bu məsələni öz yaradıcılığı ilə əlaqələndirən Fatma xanım sonradan Əhməd Midhət əfəndinin onun haqqında yazdığı kitabda yer alacaq məktublarından birində belə qeyd edirdi: "Bu zaman mənim ayrıca bir otağım olduğu kimi, yazı masam və hətta kitab şkafım da vardı." Yəni maddi sıxıntı çəkməsə də, ona yazmağa mane olan cəmiyyətin qadın yazara, onun yaradıcılığına olan münasibəti idi. Lakin göründüyü kimi, ona dəstək olan yaxınları vardı və bu baxımdan onun bir çox sələflərindən daha çox bəxti gətirmişdi - şikayətlənməyə elə bir səbəbi yox idi.

Fatma Aliyə Topuz 1936-cı il iyulun 13-də dünyasını dəyişmişdir. Xeyli müddət adı unudulan müəllif ötən əsrin sonlarında yenidən xatırlanmış, əsərlərinin əsas qismi yeni əlifba ilə çap olunmuş, həyat və yaradıcılığı haqqında elmi araşdırmalar aparılmışdır. Muradxan Munqan "Son İstanbul" (1985) əsərində F.A.Topuzun obrazını yaratmış, Fatma Barbarosoğlu 2007-ci ildə onun haqqında bioqrafik "Uzaq ölkə" romanını yazmışdır.

Beləliklə, romanları ilə ədəbiyyat tarixinə adını yazdıra bilmiş müəllif, eyni zamanda, publisistik yazıları, xeyriyyəçilik əməlləri ilə də yadda qalmış, ölkənin ictimai həyatında fəal iştirak etmişdir. O, Türkiyədə Qızıl aypara cəmiyyətinin ilk qadın nümayəndəsi olmuş, "Osmanlı Milli müdafiə üzrə qadın komitəsi"ndə çalışmışdır. Bütün xidmətlərini nəzərə alıb, xatirəsinə hörmət əlaməti olaraq, 2009-cu ildə dövriyyəyə çıxan 50 lirəlik banknotların üzərində Fatma Aliyə Topuzun şəkli vurulmuşdur.



Mətanət Vahid